*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 483-491*

https://doi.org/10.62837/2024.11.483

**NƏRMİNƏ EYVAZ QIZI ƏLİYEVA**
**Nizami Gəncəvi adına Milli**
**Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Doktorant**
nermine.eliyeva76@mail.ru

# HAŞIM BƏY SAQİB VƏ KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATI

Çətin və mürəkkəb bir dönəm hesab edilən XIX əsrin sonları və XX əsrin əvvəllərində yaranan Azərbaycan ədəbiyyatında mövzu baxımından çoxşaxəlilik və rəngarənglik nəzərə çarpırdı. Belə bir vaxtda yaşayan Haşım bəy Saqibin yaradıcılığında yeniliklərlə yanaşı klassik ədəbiyyata bağlılıq da özünü göstərirdi. Bu isə, ilk növbədə şairin mövzu qaynaqlarında büruzə verirdi. Şairin əsərlərində şifahi xalq yaradıcılığına, dini görüşlərə, təsəvvüfi-dini fəlsəfəyə, klassiklərin əsərlərinə müraciət onun klassik ədəbiyyatla bağlılığını bir daha nümayiş etdirir. Aydın olur ki, Haşım bəy Saqib yaradıcılığında yeniliklərə müsbət yanaşılsa da, klassik ənənəyə sadiqdir və onun əsas ideya qaynaqlarıdır.

**Açar sözlər: ənənə, din, təsəvvüfi-dini görüşlər, şifahi xalq ədəbiyyatı, yenilik**

**NARMINA ALIYEVA**

## HASHIM BEY SAQIB'S CREATIVITY AND CLASSICAL AZERBAIJANI LITERATURE

## SUMMARY

The diversity and variety of topics were noticeable in the Azerbaijani literature of the end of the 19th century and the beginning of the 20th century, which was considered a difficult and complex period. Hashim Bey Saqib, who lived at such a time, showed his commitment to classic literature along with innovations. This was first of all evident in the poet's subject sources. In the poet's works, the appeal to oral folk creativity, religious meetings, Sufi-religious philosophy, works of the classics once again demonstrates his attachment to classical literature. It becomes clear that although Hashim bey Saqib has a positive attitude towards innovations in his work, he is loyal to the classical tradition and is his main source of ideas.

**Key words: tradition, religion, Sufi-religious meetings, oral folk literature, innovatio**

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 483-491*

**НАРМИНА АЛИЕВА**

# ТВОРЧЕСТВО ХАШИМ-БЕЯ САКИБА И КЛАССИЧЕСКАЯ АЗЕРБАЙДЖАНСКАЯ ЛИТЕРАТУРА

## РЕЗЮМЕ

Разнообразие и разнообразие тем были заметны в азербайджанской литературе конца 19 - начала 20 века, считавшегося трудным и сложным периодом. Хашим-бей Сакиб, живший в то время, наряду с новаторством проявил свою приверженность классической литературе. Прежде всего это проявилось в тематических источниках поэта. В творчестве поэта обращение к устному народному творчеству, религиозным собраниям, суфийско-религиозной философии, произведениям классиков еще раз демонстрирует его привязанность к классической литературе. Становится ясно, что хотя Хашим бек Сакиб положительно относится к новациям в своем творчестве, он верен классической традиции и является его основным источником идей.

**Ключевые слова: традиция, религия, суфийско-религиозные встречи, устная народная литература, новаторство.**

XIX əsrin sonları XX əsrin əvvəlləri Azərbaycan ictimai-siyasi həyatı üçün çətin və mürəkkəb bir dövr kimi qiymətləndirilmişdir. Qısa bir zaman ərzində rus müstəmləkəçiliyinə, ADR-in qurulmasına, ardınca da Sovet hakimiyyətinin yaradılmasına şahidlik Azərbaycan ədəbiyyatına da hərtərəfli şəkildə öz təsirini göstərmişdir. Bu dövr sənətkarlarının yaradıcılığını bu baxımdan araşdırdıqda klassik ənənədən gəlmə mövzularla yanaşı, yeniliyi əks etdirən əsərlərlə də qarşılaşırıq. Ənənə və yeniliyi əsərlərində qovuşuq şəkildə yaşadan sənətkarlarımızdan biri də Haşım bəy Saqibdir.

XIX əsrin sonları XX əsrin əvvəllərində yaşayıb yaradan Haşım bəy Saqibin yaradıcılığı, ilk növbədə, klassik ədəbiyyatla sıx bağlıdır. Düzdür, şairin ədəbi irsində azadlıq ideyalarının, eləcə də nöqsanlara tənqidi münasibətin əksi diqqəti cəlb edir. Lakin hər nə qədər yeniliyi özündə əks etdirsə də, şairin mövzu qaynaqlarının daha çox klassik ənənlərlə bağlı olduğu da nəzərə çarpır. Haşım bəy Saqib yaradıcılığının klassik ədəbiyyatdan gəlmə mövzu qaynaqları sırasına şifahi xalq ədəbiyyatı, "Qurani-Kərim", dini hədislər və rəvayətlər, təsəvvüfi-dini görüşlər, klassik sənətkarların, o cümlədən Qazi Bürhanəddin, İ. Nəsimi, M.Füzuli yaradıcılığı daxil idi.

Məlumdur ki, şifahi xalq yaradıcılığına müraciət klassik şairlər üçün bir ənənə idi. Onların yaradıcılığını xalq yaradıcılığından ayrı təsəvvür etmək mümkün deyildi. Klassik irsimizin mühüm simalarından olan Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Şah İsmayıl Xətayi, Məhəmməd Füzuli yaradıcılığında da bu ənənə davam etdirilmiş, folklor nümunələri onların da əsərlərinin əsas qaynağı rolunu oynamışdır. Beləliklə, əsrlər boyu yazılı ədəbiyyatın yaranmasında və inkişafında əvəzsi məxəz

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 483-491*

və mənbə olmuş və onun inkişafına təkan vermiş şifahi xalq ədəbiyyatı, dövrünün tanınmış şairi Haşım bəy Saqibin də yaradıcılığına, ədəbi irsinə təsirsiz ötüşməmişdir

Belə ki, folklor mətnləri şair üçün mühüm bir qaynaq rolunu oynamış, şair bu nümunələrlə öz fikir və düşüncələrini daha ifadəli, daha emosional və daha təsirli ifadə etməyə nail olmuşdur.

Burada bir məsələni də xüsusilə qeyd etmək istərdik ki, folklorun hər hansı bir sənətkarın yaradıcılığına təsiri həmin sənətkarın milli kökünə nə dərəcədə bağlı olması ilə də əlaqədardır. Çünki "Folklor bütün əsrlər boyu xalqın mənəvi varlığını, həyata, dünyaya, gözəlliyə nikbin münasibətini, gələcəyə inamını qorumuş və yaşatmışdır. Folklordan gələn işıq yazılı ədəbiyyatı da xarici təsirlərdən, mənəvi işğaldan qorumuş, onun özünəməxsusluğunun qarantı olmuş, milli, xəlqi xüsusiyyyətlərinin formalaşmasında böyük rol oynamışdır " (1, 18) Elə bu cəhətlərinə görə də folklor daha çox milli köklərinə, mənəvi dəyərlərə bağlı olan yazılı ədəbiyyat nümayəndələrinin, o cümlədən Haşım bəy Saqibin əsərlərinin bəzəyi olmuşdur. Klassiklərimiz kimi Saqib də şifahi xalq ədəbiyyatını yüksək qiymətləndirmiş, əsərlərində dönə-dönə bu mənbəyə müraciət etmiş, poetik vasitə kimi bəhrələnmişdir.

Ədəbi fəaliyyəti XIX əsrin 30-cu illərinə qədər olan dövrü əhatə edən, klassik ədəbiyyatın bir çox janrlarında qəzəl, mərsiyə, müxəmməs, tərkibbənd, və s. əsərlər yazan şair yeri gəldikcə folklorumuzun nağıl, atalar sözləri, məsəllər, alqış və qarğışlar, lətifə kimi janrlarına müraciət etmiş, əsərlərinin daha təsirli, oxunaqlı məzmunlu olması baxımından öz sələflərindən geri qalmamışdır. Alqış, qarğış, atalar sözləri, xalq deyim və ifadələri onun bütün yaradıcılığının səciyyəvi cəhətinə çevrilmişdir.

Və bu qaynaqlardan istifadə əsərlərinin fikir dərinliyinə və dəqiqliyinə, ifadə aydınlığına, cəmiyyətdə baş verən hadisələrə zərurui məqamlarda aydın və təsirli münasibət bildirməkdən ötrü həlledici rol oynamışdır.

Fikrin sərrast və dəqiq ifadə edilməsi baxımından yazılı ədəbiyyata daha çox nüfuz edən atalar sözləri və məsəllər Saqib yaradıcılığında da özünəməxsus yer tutmuşdur. Çünki az sözlə dərin məna kəsb etməkdə atalar sözü və məsəllər heç bir folklor nümunəsi ilə müqayisəyə gəlməzdir. "Atalardan qalma bu öyüdlərin bəzən bircəciyində ifadə olunan mətləblərlə bir elin, neçə-neçə nəsillərin zəkası işığında təşəkkül tapan əxlaqına, dininə və fəlsəfəsinə, milli bədii idrak və təxəyyülünün sonsuz genişliyinə, bir sözlə, milləti millət eləyən bütün mənəvi dəyərlərə bələd olmaq olar. Onun belə bir təsir gücündən bütün dövrlərin böyük söz ustaları, mütəfəkkirlər yerli-yerində və sənətkarlıqla faydalanmışlar." (2, 4) Haşım bəy Saqib bu qaynar bulaqdan istifadə edərək əsərlərində ifadə gözəlliyinə, lakonizmə, az sözlə dərin məna ifadə etməyə nail ola bilmişdir.

Folklorda Dilini saxlayan başını saxlar (3, 91)

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 483-491*

| | |
|---|---|
| H. Saqibdə | Gər istəyəsən yaxşı səlamət ol başun,<br>Eylə eyləmə xəlqə, dilüvi saxla səlamət. (4, 438) |
| Folklorda | Qaş düzəldən yerdə vurdu gözünü çıxartdı (3, 16) |
| N. Saqibdə | Qaşı düz eyləməgə kuşiş edürsən əmma<br>Çıxarursan gözı ey nazlı Quba ceyranı. (4, 464) |
| Folklorda | Qəzadan qaçmaq olmaz. (3, 163) |
| H. Saqibdə | Qədəm öz xahişimlə qoymadum bu deyri-viranə,<br>Qəzanun qaçmaq olmaz bir qədəm sərniviştindən. (4, 189) |

Bəzən eyni atalar sözü və məsəllərə şairin dönə-dönə müraciət etməsi onu olduğu kimi və ya dəyişdirilmiş şəkildə yeni bir obrazlı təfəkkürün məhsulu olaraq poeziyanın tələblərinəı uyğun işlədərək yeni rəng qatması əsərlərinin bədii dəyərini daha da artırır, poetik düşüncə tərzinə yeni bir çalar qatır.

Şifahi xalq ədəbiyyatının yazılı ədəbiyyatda əksi milli mənəviyyatın, milli dəyərlərin xalqın dünyagörüşü, hadisələrə, ətraf aləmə baxışı haqqında dolğun təsəvvür yaradır. Eyni zamanda yazılı ədəbiyyata nüfuz edərək onu xəlqiləşdirir, daha sadə, oxunaqlı, anlaşıqlı edir. Şübhəsiz ki, haşım bəy Saqib də bu xüsusiyyətləri nəzərə almış və şifahi xalq ədəbiyyatı nümunələrini bir qaynaq olaraq görmüşdür.

Haşım bəy Saqibi klassik ədəbiyyatla bağlayan ideya qaynaqlarından biri də Quran motivlərinə, dini rəvayət və hədislərə müraciət idi. Yeri gəlmişkən qeyd edək ki, şairin yaradıcılığında dini mövzulara müraciətin bir neçə səbəbi var idi. Bu bir tərəfdən klassik ənənə ilə bağlı idisə, digər tərəfdən şairin dini təhsil alamsı, bu sahəni daha yaxşı bilməsi ilə əlaqədar idi.

Sənətkarın qəzəllərində, ilk növbədə, "Qurani-Kərim"də rast gəldiyimiz Hz. Adəm, Hz. Süleyman, Hz. Davud, Hz. Yaqub, Hz. Nuh, Hz. Musa, Hz. Ibrahim, Hz. İsa və b. peyğəmbər adları dönə-dönə xatırlanır, hədis və rəvayətlərə işarə olunur. Bu sırada İslam peyğəmbərinin adı xüsusilə diqqəti cəlb edir. Hz. Məhəmmədə (s) sevgi və hörmətlə yanaşan şairin yaradıcılığında peyğəmbərin həyatı ilə bağlı, əsasən, aşağıdakı əhvalatlara toxunulur. Bu sırada İslam peyğəmbərinin adı xüsusilə diqqəti cəlb edir. Hz. Məhəmmədə (s) sevgi və hörmətlə yanaşan şairin yaradıcılığında peyğəmbərin həyatı ilə bağlı, əsasən, merac, Allahın rəsulu olması, Şəqqülqəmər hadisəsinə toxunulur.

"Qurani Kərim"in "İsra" surəsində əks olunan İslam peyğəmbərinin meracı klassik ədəbiyyatda özünə ən çox yer edən mövzulardandır. Haşım bəy Saqibin yaradıcılığı da bu baxımdan kənarda qalmır. Aşağıdakı beytlər fikrimizin doğruluğunu bir daha sübut edir.

Yanaşdı zülfi-siyahunla, cüt kəmanəbru,
Mübarək oldu Muhəmmədə(s) "Leylətül-merac". (4, 55)

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 11, 2024
Səh. 483-491

Müşrüklər İslam peyğəmbərindən peyğəmbərliyini təsdiq edən bir möcüzə yaratmasını tələtdikdə onun göstərdiyi möcüzə tarixdə şəqqülqəmər adı ilə məşhurlaşmışdır. Və klassik şairlərin də tez-tez müraciət etdikləri məhz bu hadisəyə Haşım bəyin də yaradıcılığında geniş yer verilmişdir. Lakin şair bu hadisədən öz məqsədinə uyğun olaraq, mətnin daha obrazlı ifadəsi üçün faydalanmışdır. Bu verilən fikrin obrazlılığı ilə yanaşı, poetikliyini də təmin etmişdir.

Hz. Yusifin gözəlliyi, Züleyxanın sevgisi, atası Yaqub peyğəmbərin kor olması, gözlərinin açılması, Hz. Süleyman peyğəmbərin taxtı-tacı, Hz. Davudun nəğmə oxuması, Hz. İbrahimin Allahın dostu adlandırılmas, Adəmin cənnətdən çıxması, İslam peyğəmbərinin sevimlisi İmam Əli (ə), İmam Hüseyn (ə), Kərbəla hadisələri və s.- bağlı qissə və hekayətlər də Haşım bəy Saqib yaradıcılığında məharətlə nəzmə çəkilmiş, təlmih edilmişdir.

Beləliklə, şairin yaradıcılığında dini mənbələrdən istifadə orta əsr ənənələrinin hələ XIX əsrin sonu XX əsrin əvvəllərinə qədər gəlib çatdığını bir daha sübut edirdi.

Haşım bəy Saqib yaradıcılığını klassik ədəbiyyatla bağlayan qaynaqlardan biri də orta əsrlərdə geniş yayılmış təsəvvüfi-dini görüşlərdir. Şairin yaradıcılığının bu istiqamətdən araşdırılması təsəvvüfi-dini görüşlərin Haşım bəy Saqib "Divan"ında klassik ənənənin təzahür forması kimi əks olunduğunu üzə çıxarır.

Təsəvvüfdə eşq İlahiyə gedən bir yoldur və ən son mərhələsi ariflik məqamıdır, yəni İlahiyə qovuşma, onunla bir olmadır ki, bu da sufizmdə "vəhdəti-vücud" adlanır. "Vəhdəti-vücud" fəlsəfəsinə görə insan Tanrının bir zərrəsidir və ümumiyyətlə, bütün varlıq aləmi Allahın müxtəlif şəkildə görüntüsndən ibarətdir. "Təsəvvüfün təqdim etdiyi modeldə vahiddən (Allahdan) ayrılma, yenidən ilkin başlanğıca (Allaha) dönmə və ona qoşulmaq ideyası təsəvvüfi-irfani hərəkətin struktur sxemini təşkil edir. Təsəvvüf əhlinin fikrinə görə, bu ayrılma və qoşulma (nüzül və involyusia) mərhələsində olan an kəsrətdən vəhdətə gedən yol, maddilikdən mənəviliyə gedən yoldur.[5, 36] Lakin bu yol hamar deyil və ona qovuşmaq üçün Haqq yolunun səyyarı, salik bir çox məhrumiyyətlərə sinə gərməlidir.

Cami-vəhdət badəsindən Saqibi məst eyləmiş,
Ruhdur başdan-əyağə, rahəti-candur ədəb. [4, 37]

Burada - yuxarıdakı beytdə və ümumiyyətlə, Haşım bəy Saqib yaradıcılığında dəfələrlə işlədilən "cami vəhdət badəsi" ifadəsi də məhz həmin "vəhdəti-vücud" konsepsiyası ilə sıx bağlıdır. Təsəvvüfdə "badə" İlahi eşqin ilkin mərhələsi ilə bağlı olaraq rəmzi çalar daşıyır. "Cam" dedikdə isə "mərifət şərabı ilə dolu ürək, İlahi təcəlli və nur qaynağı" [6, 217] nəzərdə tutulur. Və beləliklə, aydınlaşır ki, qəlbi

ilahi nurla dolan salik artıq vəhdətin nə olduğunu anlamış və qəlbindəki vəhdət sevgisindən məstlik halına düşmüşdür ki, bu da qeyd etdiyimiz kimi təsəvvüfün əsas məsələlərindən hesab olunur. Başqa cür bir növ sufizmin canı da adlandırmaq olar.

Maddi aləm Allahın "Kon" yəni "ol" əmrindən sonra yaranmışdır. Qurani Kərim"in bir çox ayə və surələrində bu barədə tez-tez danışılır. "Qurani Kərim"in "Əl Bəqərə" surəsinin 117 - ci ayəsində bu barədə oxuyuruq. "Göyləri və yeri icad edən (yoxdan yaradan) Odur. Bir işin yaranmasını istədiyi zaman ona (o işə) yalnız "Ol!" – deyər, o da (fövrən) olar." [7, 17]

Ey soran Allah nədur, gəl, göstərüm Allahı mən,
Yoxlığı var eyləyən, Allahi-Rəhmandur ədəb. [4, 37]

Göründüyü kimi Haşım bəy Saqibin yaradıcılığnda Allahın hər şeyi yoxdan var etməsi fikri də özünə poetik formada yer etmişdir.

Etmədi tab qəmu firqətə miskin Məcnun,
Duşdi səhralərə, tabi-qəmi-hicran etdim.
Dərdimə olmadı dərman kimə yüz dondərdim,
Coxlarun dərdinə mən canilə dərman etdim [4, 217]

Bu beytdə lirik qəhrəman Tanrıya qovuşmamasını özünə dərd edib ah-nalə edir. Sufizmdə aşiqi Tanrıya yaxınlaşdıran cəhətlərdən birincisi də elə göz yaşı və daha çox ah-nalə etmədir. Aşiq özünü Məcnunla müqayisə edərək eşqdə ondan daha üstün olduğunu dilə gətirir, onun eşqə dözməyərək səhralara düşməsini də xüsusilə vurğulayır. Aşiqi daha çox da incidən onun dərdinə kimsənin yardım etməməsidir. Bu isə aşiqin artıq mənəvi yolçuluğudur, eşq dərdinə düşməsidir.

Lakin bu mənəvi yolu getmək göründüyü kimi o qədər də sadə deyil və bunun da özünəməxsus mərhələləri, çətinllikləri vardır. Təsəvvüfdə bu yollar və mərhələlər konsepsiya şəklində verilmişdir ki, biz də XX əsr sənətkarı Haşım bəy Saqibin yaradıcılığında bu konsepsiyanın bəzi müddəalarının ayrı-ayrı beytlərdə əks olunduğunun şahidi oluruq. Şairin yaradıcılığında ilk növbədə Allahın təcəllisinə işarə edən beytlər diqqəti cəlb etməkdədir. Aşağıdakı beytə diqqət edək.

Dedilər sən necə Allahi tanursan, Məcnun,
Dedi, Allah mana Leylidur, hər yandədur. [4, 132]

"Bütün bəşəri gözəlliklər insanı Tanrıya aparan yoldur. Buna görə də Məcnun bütün gözəlliklərə Tanrı hüsnünün inikası kimi baxır. Allahı sevdiyi üçün onun yaratdığı bəşəri gözəllikləri və onların zirvəsi olan, ilahi gözəllikləri özündə təcəssüm etdirən Leylini də sevir." [8, 70] Burada bir məsələni də qeyd etmək istərdik ki, ümumiyyətlə, təsəvvüfi ədəbiyyatda "Leyli" adətən, "Hüsn"ün rəmzi

kimi verilir. Bu məqamda bu Allahın insanda təcəllisi hesab olunur. Lakin ardınca "Allah hər yerdədir" deməklə bu fikir daha da genişləndirilir. Artıq təcəlli insanda yox, həm də ətraf aləmdə, əşyalarda, bir sözlə, bütün mövcudatda ifadəsini tapır. Bəs təcəlli nə deməkdir? Ümumiyyətlə, təcəlli sufiliyin əsas müddəalarından biridir və onun müxtəlif növləri, daha doğrusu, mərhələləri göstərilməkdədir. Təcəllinin növlərini mənəvi yolçuluğa çıxan salikin mənəvi yolçuluq mərhələləri də adlandırmaq olar. İbtidadan aliyə qədər. "Təcəlli" sözü əyan olma, görünmə, zahir olma, təzahür etmə deməkdir. Təsəvvüfdə bu anlayış Tanrı sifətlərinin əks olunması, maddi aləmdə ilahi mahiyyətin təzahürü anlamında işlənir." [8, 138] Başqa sözlə desək, "təsəvvüfçülərə görə bütün masiva Haqq zatının təcəllisi olduğundan varlıqda hansı səmtə baxsanız, Allahı görərsiniz, kainatdakı hər bir cisim və mövcudluqda Haqqın nişanəsi və zühuru vardır. "Quran"ın "Əl –Bəqərə" surəsində də Allahın hər tərəfdə mövcud olduğu xüsusilə vurğulanır. "Şərq də, Qərb də Allahındır. Hansı tərəfə yönəlsəniz, Allah oradadır."( "Əl-Bəqərə! 115)" [9, 29] Buna görə də - Allahın hər yerdə olması ifadəsi məhz bu nəzəriyyə ilə sıx bağlıdır, beytdə də məhz bu konsepsiyaya işarə edilmişdir. "Lakin bu, adi gözlə görünə bilməz. Bunun üçün insanın bəsirət gözü açıq olmalıdır. Bəsirət gözünün açılması isə insanın ən yüksək mərtəbəyə yüksəlməsi ilə baş veirir. Bu isə hər kəsə nəsib olmur." [10. 127] Yuxarıdakı beytdən belə aydın olur ki, Məcnun haqq aşiqidir, ilahiyə gedən yolun yolçusudur və bu yolçuluq davam edir. Beləliklə, Məcnuna bu sözləri deməyi vadar edən də onun bəsirət gözüdür. Onun bəsirət gözü açılmasaydı, Allahın hər yerdə təcəllisini iddia etməzdi. Bu isə onun mənən təmizləndiyini, saflığa doğru getdiyini göstərir. Şairin ədəbi irsində belə beytlərə yeri gəldikcə rastlanaqdadır.

Burada Haşım bəy Saqib yaradıcılığında tez-tez vurğulanan zahid və mömün, meyxana və məscid məsələsinə də toxunmaq yerinə düşərdi. Belə ki, şairin yaradıcılığında məscid və meyxanə, mömün və zahid daima üz-üzə qoyulubdur. Həmin beytlərdən bir neçəsinə nəzər yetirək.

Təklif məscidə məni, zahid, cox eyləmə,
Başdan-əyağə sən kimi buyi-riya verur. [4, 143]
Meyxanədən çağırma məni kunci-məscidə,
Zahid, yetmişəm dəxi həddi-kəmalə mən. [4, 259]

"Təsəvvüfdə məscid zahiri və batini qaydalar, asılılıqlar və ibadətlər kimi yozulur. Məscid və meyxanə əks qütblər, müxtəlif dünyagörüşlər arasındakı təzadı ifadə edir." [8, 115] Bu beytlərdə də eynilə həmin fikir vurğulanmışdır. "Meyxanə" rəmzi məna daşıyır və mümünlərin və ya "kamil mürşüdün, sufi və ya şeyxin saf qəlbinə və Lahut aləminə işarədir" [6, 117]. Mömünün qəlbi isə Allahın evi adlandırılır. Çünki orada – həqiqi mömünün qəlbində Allahın nurundan başqa heç nəyə yer olmur. Bu baxımdan da Haşım bəy Saqib zahiri ibadətlərin yerinə

yetirildiyi, insanın ruh halından, bəlkə də, uzaq olan məscidi meyxana ilə - mömünün qəlbi ilə müqayisə edir və üstünlüyü mömünün qəlbinə - meyxanəyə verir. Yəni təsəvvüfdə əsas insanın qəlbi rol oynayır. Çünki ilahi eşq, Allahın nuru qəlbdə yerləşir.

Əvvəlki fikirlərimizin davamı olaraq deyə bilərik ki, belə olan halda, demək ki, bu yolun özünəməxsus çətinlikləri həddən artıq çoxluq təşkl edir. Sufilərdə belə bir fikir də formalaşmışdır ki, bu yolda salik nə qədər əzab əziyyət çəkərsə, nə qədər iztiraba düşərsə vüsal o qədər yaxın və şirin olar. İlahiyə o qədər tez yaxınlaşar, yarına qovuşar. Mükafatı artıq olar. Və məhz vüsala çatmaq, İlahiyə qovuşmaq üçün bu yollardan da şikayət etmədən keçmək lazımdır və bu şərtdir. Və həqiqi aşiq bu əziyyətləri, şübhəsiz ki, duymayacaqdır. Əgər kim bu çətinliklərdən, əzablardan keçməsə, o zaman vüsal onun üçün əlçatmaz olar. "Həqiqətə qovuşmaq uğrunda çəkilən əzab əziyyətlər salik üçün ən böyük rahatlıqdır" [8, 79] Bu zaman yuxarıda da qeyd etdiyimiz kimi, qəm və kədər, göz yaşı haqq aşiqini ilahiyə yaxınlaşdıran vasitələrdən hesab olunur. Aşağıdakı beytdə bu fikir öz əksini bədii şəkildə bu cür tapmışdır.

Qəddun qəmi-hicran ilə xəm olmasa, olmaz,
Eşq əhli gər aludeyi-qəm olmasa, olmaz. [4, 151]
Nədur bu neydə nalə, ey mana tə`n eyləyən, əl cək,
Necə hicrində yarun ahu əfğan eyləmək olmaz. [4, 149]

Bəzən hətta bu səbəbdən həqiq aşiqlər Allahdan onların əzablarını, dərdlərini, daha da artırmasını istəyirlər. Dərd, əziyyət dediyimiz isə aşiqin qəlbinin sevgi və eşqlə daha da alovlanması, bunun nəticəsində də ətraf aləmi duymamasıdır. Bu eşq Haqq aşiqini sevgiliyə aparan bir vasitədir.

Şairin fikrincə, aşiqliyin ən yüksək mərtəbəsində hətta aşiq öz sadiqliyini canı bahasına da isbat etməlidir. Və buna hazır olmalıdır. Bununla da o öz eşqini isbat etmiş olar. "Eşq yolunda başdan (candan, cismindən – ƏN) keçmək təsəvvüfün fənafillah-bəqabillah modelinin poetic təzahürüdür" [5, 113] Beləliklə, şairin fikrincə, canını fəda etməyə hazır olmayan aşiq eşqdən qovrulub yanan həqiq aşiq ola bilməz.

Bununla da, Haşım bəy Saqib yaradıcılığının təsəvvüfi yöndən qısaca olaraq araşdırılması bir daha sübut etdi ki, onun şeirlərində təsəvvüfi ideyalara geniş yer verilmişdir. Bu zaman şairin yaradıcılığında eşq fəlsəfəsi diqqəti daha çox cəlb edir. Və bu şairin yaradıcılığında bir konsepsiya kimi özünü göstərmişdir. Belə ki, burada təsəvvüfün əsasını təşkil edən "vəhdəti-vücud" fəlsəfəsi, Allahın təcəllisi, hüsn və eşq, İllhiyə qovuşmanın əsas prinsipləri və s poetik şəkildə işlənib hazırlanmışdır. Eyni zamanda bütün bunlar təsəvvüfi rəmzi çalarlarla öz ifadəsini tapmışdır.

Nəhayət Haşım bəy Saqib yaradıcılığının ideya qaynaqlarının araşdırılması nəticəsində aydın oldu ki, əsərlərində yeni mövzularla yanaşı klassik ədəbiyyata da

həssaslıqla yanaşılmış, və bu ədəbiyyatın qaynaqları şairin ədəbi irsi üçün də mühüm qaynaq rolunu oynamışdır.

**İstifadə olunmuş ədəbiyyat.**

1. Vaqif Əziz oğlu Yusifov Müasir azərbaycan poeziyasında ənənə və novatorluq problemi Bakı, 2009 (1960-200 ci illər) (Fiologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya),Bakı, 2009, 359 s
2. Atalar sözü Bakı, "Nurlar - Nəşriyyat Poliqrafiya Mərkəzi"2007, 319s
3. Azərbaycan xalq ədəbiyyatı Atalar sözü Bakı, "Öndər nəşriyyatı", 2004, 262s
4. Haşım bəy Saqib "Divan", "Nurlar", 2009, 509 s
5. Hümmətova, Xuraman Bəhmən qızı. (Azərbaycan şeirinin poetik qaynağında təsəvvüf (XII-XVI əsrlər) / X.Hümmətova. –Bakı: "Elm və Təhsil", – 2015. – 408 s.
6. Göyüşov, Nəsib Cümşüd oğlu. Təsəvvüf anlamları və dərvişlik rəmzləri (yığcam enssiklopedik açıqlamalar) / N.Göyüşov. –Bakı: "Tural-Ə" Nəşriyyat Poliqrafiya Mərkəzi, – 2001. – 241 s.
7. Qurani Kərim / Tərt və nəşr .ed. R.Y. Dəmirli, Ərəb dilindən tərc. ed. Z.M.Bünyadov, V.M.Məmmədəliyev, Ön söz V.Məmmədəliyev, qeyd və şərhlər Z.M.Bünyadov, məsləhətçi-redaktor, Şeyxülislam Hacı Allahşükür Paşazadə. – Bakı:"Olimp", –1997. – 656 s.
8. Məmmədli, Nəzakət Fətəli qızı. Füzulinin Leyli və Məcnun əsərində təsəvvüf və onun bədii ifadə sistemi /N.F.Məmmədli, –Bakı: "Elm və təhsil", – 2011.–184 s.
9. Babayev, Yaqub Məhərrəm oğlu. Təriqət ədəbiyyatı: sufizm, hürufizm /Y.Babayev. – Bakı: Nurlan, – 2007. – 128 s.
10. Əliyeva S.E Qazi Bürhanəddin yaradıcılığında təsəvvüfi ideyaların bədii ifadə çalarları // Filologiya məsələləri, № 7, – Bakı: Elm və təhsil, – 2015

**Rəyçi: akademik Rafael Hüseynov**